Azərbaycan Milli Elmlər Akademiyanın Prezidenti
akademik **İsa Həbibbəyliyə** Fəlsəfə və Sosiologiya
institutunun baş elmi işçisi, fəlsəfə elmləri doktoru
Aydın Əlizadə tərəfindən

**Hesabat**

*Surəti:*
1. İctimai Elmlər Bölməsinin sədri akademik **Gövhər Baxşəliyevaya**;
2. AMEA Fəlsəfə və Sosiologiya institutunun **Elmi şura üzvlərinə**.

AMEA Fəlsəfə və Sosiologiyası institutunun şöbə müdiri Xatirə Quliyeva özünün "Cahan+" informasiya agentliyinin vasitəsi ilə mənə qarşı silsilə böhtan və təhqirlərlə dolu məqalələr yayımlamış, buna görə də xüsusi ittihamla tərəfimdən məhkəməyə verilmişdir. Öz növbəsində Xatirə Quliyeva da mənə qarşı eyni cavab addımı atmışdır. Buna görə bu iş üzrə iki məhkəmə iclası keçirilmişdir. Biri Bakının Səbayıl, obirisi Nizami rayon məhkəmələrində.

Mənə qarşı Xatirə Quliyevanın iddiasını Səbayıl məhkəməsi mahiyyət etibarı ilə rədd etdi. Mənim ona qarşı ittihamımı isə Nizami rayon məhkəməsi mahiyyətinə görə deyil, texniki məsələlərə görə təmin etmədi. Məhkəmə hesab etdi ki, "Cahan+" informasiya agentliyinin ünvanı və Xatirə Quliyevanın yaşayış yeri məlum olmadığından cinayətin harada baş verməsi məlum deyil. Bundan başqa mən, xüsusi ittihamçı kimi ona veriləcək cəzanın dərəcəsini yazılı olaraq qeyd etməmişəm.

Ümumiyyətlə hər iki məhkəmənin qərarlarından razı qaldım. Çünki, mənim məqsədim Xatirə Quliyevanı tutdurmaq, ya da ondan cərimə almaq deyil idi. Sadəcə mən, ictimaiyyətə və AMEA rəhbərliyinə onun bütün yazılarının və yaydığı şaiyələrin cəfəngiyat və böhtan olmasını bildirməkdən, eləcə də bu məsələni kütləviləşdirməkdən ibarət idi. Buna da aşağıda göstərdiyim 2 müddəalarla tam olaraq nail oldum:

1. Mənə qarşı ittihamın mahiyyətcə rədd edilməsi o deməkdir ki, əməllərimdə və yazılarımda cinayət tərkibi ya ictimai təhlükə yoxdur və bundan sonra məni heç kəs bu əməllərdə ittiham edə bilməz.

2. Mənim ittihamımın texniki məsələlər üzündən təmin edilməməsi isə Xatirə Quliyevanın mənə qarşı böhtan atdığını inkar etmir. Ona görə də mənim ittihamım olduğu kimi qüvvədə qalır və gələcəkdə də qalacaq.

Nizami rayon məhkəməsinin qərarına görə mən, istənilən vaxt ittihamı yenidən qaldıra, eyni zamanda 20 gün ərzində apelyasiya şikayətini təqdim edə bilərəm. Lakin məqsədimə nail olduğum üçün buna ehtiyac görmürəm və AMEA-ya problem yaratmaq istəmirəm. Bununla belə, mənə qarşı böhtan yaymış "Cahan+" informasiya agentliyinin fəaliyyətinin qanuniliyini, onun dövlət vergilərini verməsi, lisenziyasının və sahibi Xatirə Quliyevanın VÖEN-in olması məsələlərini yoxlamaq üçün Respublika Prokurorluğuna müraciət etmişəm.

Təəssüflə qeyd edirəm ki, məhkəmə zamanı Xatirə Quliyevanın sözlərindən məlum olmuşdur ki, AMEA Fəlsəfə və Sosiologiya institutunun daha iki nəfər şöbə müdiri – Azər Mustafayev və Sakit Hüseynov mənim haqqımda AAK-a və hətta ölkə Prezidentinə böhtançı şikayətlər yazıblar. Bu da onların

əlbir hərəkət etməsindən və institutda məni yalanlamaq üçün mütəşəkkil qrup yaratmasından xəbər verir. Məqsəd də mənim professorluğa iddia etməyimiz qarşısını almaq idi. Hesab edirəm ki, AMEA Fəlsəfə və Sosiologiya institutunun 3 nəfər şöbə müdirinin və elmlər doktorlarının bu kimi əməlləri Azərbaycan elmi üçün böyük rüsvayçılıqdır. Bu şəxslər beynəlxalq indeksləmə sistemlərində yüksək elmi reytinqlərə nail olmaqdan, Azərbaycan elmini keyfiyyətli elmi əsərlərlə dünya səviyyəsində təmsil etməkdənsə öz enerjilərini həmkarının yalanlamasına, institutda fitnə salmağa sərf edirlər. Həmçinin hesab edirəm ki, onlar bu əməllərlə mənim professorluğuma səs vermiş əksəriyyət Elmi şura üzvlərinə, eləcə də İnstitut rəhbərliyinə hörmətsizlik ediblər və özlərini Elmi şuranın qərarından yüksək biliblər.

Hesabatın sonunda bildirirəm ki, heç vaxt dövlətə qarşı heç bir hərəkət etməmişəm, ermənilərlə əlaqələrim yoxdur, millətini aşağılamamışam, əxlaqsızlıq etməmişəm. Bu barədə illərlə mənə qarşı yayılan şayiələr və ittihamlar məhkəmələr tərəfindən rədd edilib. İşlədiyim dövrdə heç vaxt əmək məcəlləsini pozmamışam, öz vəzifə borcumu yerinə yetirmişəm, rəsmi qurumlar tərəfindən tanınan elmi nailiyyətlər əldə etmişəm, elmimizi ölkəmizin xaricində təmsil etmişəm, dünya indeksləmə sistemlərində yüksək reytinqə nail olmuşam.

**Qoşma:**

1. Xatirə Quliyevanın Aydın Əlizadəyə qarşı xüsusi ittiham qaydasında qaldırdığı cinayət işi üzrə Səbayıl rayon məhkəməsinin qərarı: https://alizadeh.narod.ru/mehkeme/xatira.pdf

2. Aydın Əlizadənin Xatirə Quliyevaya qarşı xüsusi ittiham qaydasında qaldırdığı cinayət işi üzrə Nizami rayon məhkəməsinin qərarı: https://alizadeh.narod.ru/mehkeme/xatira2.pdf



01.02.2024